# *Qazaxıstanlı alim:* "Azərbaycan TDT-ni dünyada formalaşmaqda olan güc mərkəzi kimi görür"

**Artan geosiyasi böhran fonunda Türk Dövlətləri Təşkilatı (TDT) möhkəmlənmə və dayanıqlı inkişafın yeni mərhələsinə qədəm qoyur.**



Bu barədə AZƏRTAC-a açıqlamasında Avrasiya Milli Universitetinin baş müəllimi, şərqşünas Janat Momınkulov bildirib.

Onun sözlərinə görə, Qəbələdə keçirilən Türk Dövlətləri Təşkilatının (TDT) Dövlət Başçıları Şurasının 12-ci Zirvə Görüşü dönüş nöqtəsi oldu, təşkilat konkret əməkdaşlıq mexanizmlərinin işlənməsinə keçid etdi.

"Beynəlxalq gərginlik türk dövlətlərini birləşməyə məcbur edir. Bu baxımdan Türk Dövlətləri Təşkilatı regional tərəfdaşlıq platformasına çevrilir, üzv dövlətləri ortaq strateji maraqlar ətrafında birləşdirir. Ukraynadan Yaxın Şərq və Əfqanıstana qədər qeyri-sabitliklə əhatə olunmuş bu formalaşmaqda olan "türk təhlükəsizlik kəməri" qlobal maraqların kəsişmə nöqtəsində yerləşir", - deyə o bildirib.

"Azərbaycan təhlükəsizlik gündəliyinin formalaşdırılmasında əsas rol oynayır. Prezident İlham Əliyev 2026-cı ildə Türk Dövlətləri Təşkilatına üzv dövlətlərin birgə hərbi təlimlərinin keçirilməsini təklif edib. Rəsmi Bakının mövqeyi daha açıq və birbaşa xarakter daşıyır: Azərbaycan TDT-ni dünyada formalaşmaqda olan güc mərkəzlərindən biri kimi görür", - deyə Momınkulov vurğulayıb.

Sammitin əsas prioritetlərindən biri, Mərkəzi Asiya, Cənubi Qafqaz və Avropanı birləşdirən Orta dəhliz kimi tanınan Trans-Xəzər Beynəlxalq Nəqliyyat Marşrutu olub. Bu marşrut dürk dövlətlərinin nəqliyyat müstəqilliyi üçün əsas hesab olunur və yeni Avrasiya logistika arxitekturasının mühüm elementidir.

"Əsas diqqət, ehtimal ki, tariflərin və texniki standartların harmonizasiyasına, birgə koordinasiya mexanizminin yaradılmasına, limanlar və nəqliyyat infrastrukturunun təhlükəsizliyinin təmin edilməsinə yönəlib. Bu tədbirlərin həyata keçirilməsi regionda qarşılıqlı əlaqələri gücləndirir və TDT-ni Şərq-Qərb istiqamətində strateji mərkəzə çevirir. Aparıcı dünya dövlətləri də bu inkişafla maraqlanır", - deyə ekspert əlavə edib.

Şərqşünasın fikrincə, enerji əməkdaşlığı türkdilli inteqrasiyanın təməl daşı olaraq qalır. Qazaxıstan, Xəzər regionu ölkələri, Azərbaycan və Türkiyə arasında razılaşdırılmış qaz və neftin ixracı üzrə strategiya regionun dayanıqlı əlaqələrinin möhkəmləndirilməsi və enerji müstəqilliyi üçün həyati əhəmiyyətlidir.

Ekspert yekun olaraq vurğulayıb ki, türk dünyası bu gün regional sülh və sabitliyin artan məkanına çevrilir. Qəbələ sammiti sadəcə diplomatik tədbir olmaqla kifayətlənmir, türk inteqrasiyanın möhkəmlənməsini və əməkdaşlığın yeni keyfiyyətinə keçidi simvolizə edir.

Azərbaycan.- 2025.- 9 oktyabr (№ 217).- S.8.